# #ŞƏRHSİZ

**tağı nurullayev**

# 01.

# An...

*(Müəllif)*

Zaman böyük bir boşluq təsiri oyadır. Hər kəs bu boşluqda xəbərsizcə aşağıya doğru yuvarlanır və geriyə yolun olmadığını da hamı çox gözəl dərk edir. Sadəcə, fərq ondadır ki, bəziləri yuvarlanarkən düşəcəyi yerə baxır, bəziləri isə tam əksinə düşdüyü, yəni geridə qoyduğu yüksəklikləri, sürətlə uzaqlaşan gerilikləri seyr edir çarəsizcə, sevinc və yaxud da ki, kədərlə, hüznlə... Baxır adamına... Adamın adamlığına... Hisslər, duyğular və yaşananlar da insanına görə dəyişir, rəngarəngləşir, müxtəlif formalar alıb utanır, qızarır, həyasızlaşır, bir zamanlar mövcud olan qeyri-adiliyini sıradan olaraq nümayiş etdirir insanlara və sonda da qəbul etdirir, nə qədər çətin olsa da unutdurur keçmişini. Bəzən adi olan, başqasına qeyri-adi, süst olan təəccüblü və yaxud da kədərli olan gülünc görünə bilər. İnsan gözünün görə bilmədiyi qədər zərif, nazik və eyni zamanda möhkəm, qalın və hətta bəzi anlarda isə aşılması qeyri-mümkün olan nazik bir

cizgi dayanır aralarında. Qısası hər şey öz əlinin iradəsində yaxud da ki, öz iradənin əllərindədir...

Bəzən heç istəməsəm də bu fikir təkrar-təkrar narahat edir düşüncələrimi, dəqiqələrcə, saatlarca fikirləşməyə, bu mövzu ətrafında öz-özlüyümdə çək-çevir aparmağa vadar edir. Görəsən, insanoğlunun ən böyük üstünlüyü, fərqliliyi olan fərqli düşüncəlilik, insan başlarının sayı qədər müxtəlif olan dərrakə, ürək sayı qədər hiss, duyğu paralel olaraq insanlığın da üstünlüyüdürmü? Yoxsa ki, tam əksinə üstünlük yox, elə ən əsas əskiklik, yaxud da artıqlıq? Bəlkə də ən böyük üstünlük və ən əlçatmaz nemətdir bəxş olunub, sadəcə maraqlılıq, zövq müxtəlifliyi, fərqliliyin gözəlliyi adı altnda məhv olub gedir, əsl mənasını dərindən düşünməyə və əsas məğzinin nə olduğunu anlamağa imkan verilmir. Əslində hər şey öz nizam və axarından zərrə qədər də uzaqlaşmayıb və heç bir zaman da uzaqlaşmayacaq əminliyi doğurur. Elə necə idisə eləcə də davam edir, edəcək, ta ki edə bildiyi qədər, etdikləri edə biləcəklərinə mane olacağı, edəcəklərinə etməyəcəyi qərarını verib etdikləri ilə kifayətlənəcəyi ana kimi... Bir gün təsiri bağışlayan böyük bir ömrün də elə bir gün

kimi qısa, eyni və təkrarlıqla keçməsi kimi dəlillər sübut edir bütün bunları...

Süstləşən, qurulaşan və sadəcə tamaşaçı mövqeyində dayanıb heç tamaşaçıya xas olan alqışlamaq və yaxud da məzəmmət etmək kimi fəaliyyətləri icra etməyi belə düşünməyən bir yığın topluluq. Sadə, bəsit və dar düşüncəli varlıqların özlərini mürəkkəb kimi göstərdikləri düzəltmə bir səhnə, başqa sözlə desək, sadə başlanğıclardan başlayıb mürəkkəb sonluqlara doğru davam edən düzəltmə insanlar haqqında tragikomediya... Bəs zaman?

Zaman dayanmayıb sürətlə axdığı kimi ətrafındakıları da öz melodiyasına uyğunlaşdırır və hamını bu melodiyanı dinləməyə məcbur edir. Amma bilmirəm, ədalətindənmi yoxsa ədalətsizliyindənmi irəli gəlir, hər kəsə ayrı bir melodiya seçir. İnsanların sayı qədər dəqiq seçilib mükəmməl bir şəkildə işlənib hazırlanmış not topluları, həyat hadisələrinin baş verməsi timsalında ifa olunan mahnılar... Hamısı da bir-birindən fərqli, bəzilərində kiçik və yaxud böyük sayıla biləcək oxşarlıqların olmasına baxmayaraq hər biri özünəməxsus, müxtəlif və təkrarolunmaz.

Bəlkə də hal-hazırda həyatın əsas mənası olaraq qəbul etdiyimiz fərqlilik, rəngarənglik budur - insan övladlarının sayı qədər var olan həyat hadisələri, talelər, yaşantılar, güzəranlar, həyat davam etdikcə özüylə bərabər sürüyüb apardığı yaşantılar, təkrarsız olaylar, gündəlik insanlara yaşatdıqları... Bəzi məqamlarda birləşən, qovuşub yoluna birgə davam edən, bəzən isə ayrılıb tənhalığıa üstünlük verən insan həyatları - bir-birinin yaxınlığından sürətlə yan keçən, azacıq toxunub kimlərəsə kiçik təsirlər edən, bəzən isə kimlərinsə böyük fəlakətlərə sürüklənməsinə səbəb olan... Zaman möcüzəsi bax budur - eyni bir zaman kəsiyində müxtəlif məkanlarda kimlər üçünsə zamanın fərqli şəkildə keçməsi.

Bax bu suallar, daha doğrusu bu düşüncələr daim düşündürüb məni və həyatım boyunca qarabaqara izləyib sanki hər getdiyim yerlərdə, yeni insanlarla tanış olduğum fərqli-fərqli məkanlarda. Kəndin qarşısından keçən magistral yolun kənarında bəzən olurdu ki, saatlarla dayanıb tamaşa edirdim. Sürətlə şütüyən maşınları seyr etmək, onlar haqqında ilkin təsəvvürlər formalaşdırmağı çox xoşlayırdım, həm də çoxları bunu hiss edib

duya bilməsə də mən hiss edirdim, bu zövqü yaşamağı bacarırdım. Bir anın içində yol ilə şütüyən onlarla, yüzlərlə maşın, hər birisinin içərisində ən azı bir nəfər, bəzilərində isə daha çox insan. İstəyirdim elə bir gücə sahib olum ki, hamısını saxlayıb ürəyimdə neçə illərdir yığılmış sualları soruşub rahatlayım. Axı kimsiz, hara gedirsiz, niyə, hansı işin dalıyca, nə vaxt qayıdacaqsınız? Bunun kimi sualları soruşmaq və insan həyatları haqqında daha çox öyrənmək, araşdırmaq - insanlar necə fərqli yaşayırlar və yaxud insan yaşamlarındakı hansı fərqliliklər var? Sonralar şəhərdə də bu adətim davam etdi - eyvana çıxıb üzbəüz binaya tamaşa edərdim, xüsusən də gecə vaxtları. Binalar bir-birinə yaxın yerləşdiyindən gecələr otaq işığında içəridə olanları rahatlıqla görmək olurdu. Hər işıq saçan pəncərə bir həyat hekayəsindən, bir ailədən xəbər verirdi, müxtəlif həyat hekayələrini əks etdirirdi. Diqqətlə baxırdım, divanda əyləşib televizora baxan ata, mətbəxdə öz işiylə məşğul olan ana, uşaqlar isə tamam fərqli, ya telefonla, ya kompyuter qarşısında, ya da ki, dərsləri ilə məşğul... Bəzi evlərin işığı yanmır, lap erkəndən söndürülüb, yəqin, kimlərsə ikinci növbə olan işinə gedəcək,

erkəndən yatıb, ya da ki, hələ işdədir və qayıtmayıb evinə. Bəzi evlər sanki sükutdan, kimsəsizlikdən xəbər verir, dərhal anlayıram ki, bu ev uşaqsızdır, insanı ürpəşdirən və soyudan bir səssizliyə, səliqəyə sahibdir. Evlərin bəzilərində adam həddindən artıqdır, deyəsən, kimlərinsə bu axşam qonağı çoxdur, stol arxasında şirin söhbətlər getdiyinə əminəm, heç eşitməsəm də təsəvvür edə bilirəm indi oradakı səs-küyü, deyib-gülmələri...

Həqiqətən dərindən düşündükdə zamanın böyük bir möcüzə olduğunu anlamaq heç də çətin deyil və bu anlayışın qəbul edilməzliyi qeyri-mümkündür. Zaman fərqlidir, müxtəlifdir, ağlasığmaz dərəcədə zəngindir və insanlar artdıqca bu zənginlik daha da artır, çoxalır. O, daima insanlardan bir addım irəlidədir və insan övladlarının başına gələcəklərdən xəbərdardır. İstənilən məkanda, şəraitdə yaşayan, vaxtını ən müxtəlif şəkildə keçirib istər asanlıq, istərsə də çətinliklə mübarizə aparan hər bir insan üçün zaman eynidir, eyni aramla axır, hətta onlar bunun fərqinə varmayıb hər günahı zamanda axtarsalar belə o öz həqiqətindən bir düym məsafəsində də uzaqlaşmır.

Zaman ildırım sürəti tək irəlilədikcə ətrafdakı bütün məfhumlar da ona ayaq uydurmağa can atır, bəziləri çatır, bəziləri geridə qalıb geciksə də bəzi “bacarıqlılar” ondan daha qabağa daha erkən çatmağa nail olur. Yalnız irəli getmək, sözdə inkişaf etmək tipli anlayışları hər bir anlamda nikbin mənada qarşılayıb ağına-qarasına, yaxşısına-pisinə, xeyirlisinə və zərərinə fikir belə vermədən uğraşmaq heç də hər anlamda düşünüldüyü tək xoş qarşılanası bir hadisə deyil. Nə qədər çətin, zor, lakin bəzən nə qədər asan və bəsit görünsə və səslənsə də hər fəaliyyətin, istənilən bir aktivliyin də öz zamanı və ən münasib şəraitə uyğun gələn vaxtı vardır. Necə ki, vaxtı keçmiş bir məhsulu yemək nə qədər ziyanlıdırsa, eləcə də vaxtı çatmayıb hələ kal olan, dəyməmiş bir meyvəni yemək də bir o qədər zərər və təhlükəlidir.

Artan imkanlar və bu fonda daha sürətli bir şəkildə keçdiyini güman etdiyimiz vaxt məfhumunun insanlara və paralel olaraq insanlığa verdiyi ərmağanlarından biri də heç şübhəsiz azalan və günü-gündən kütləşən yaddaşlar, unutqanlıq və xatirələrə ehtiyacsızlıqdır. Hər gün inkişafından bir addım geri qaldığımız, ancaq bəzi insanların günü

bir neçə yüz addım irəlidə başlaması və bunu böyük bir hünər sayması, eləcə də elektron vasitələrin həyatımıza ağlasığmaz bir sürətlə daxil olub, hətta az qala bizi öz həyatımızdan xaric etməsi və digər bu tipli amillərlə izah etmək olar bu yaddaş zəifləmələrini. Telefon, kompyuter vasitələri, televiziya reklamları, kinofilmlər və bu qəbildən olan minlərlə adlıların gündəlik iş və şəxsi həyatımızın ayrılmaz bir parçasına çevrilməsi, təsəvvürlərimizdən daha böyük yaddaşlara sahib olmaları, istər-istəməz insanoğullarında bir arxayınlıq və rahatlıq təsəvvürləri formalaşdırmış, elə buna görə də öz yaddaşının zəifləməsinin qeydinə qalmaq kimi çətinliklərə sövq etməmişdir. “Dünən axşam şama yediyim bu gün yadımda qalmır” kimi gülüş məqsədilə deyilmiş, lakin böyük məna kəsb edən fikirlər bu gün tam anlamıyla öz axtardığı şəraitdə həqiqi mənasını tapır, bəlkə də insanlar onu tapır, ona uyğunlaşır... Sahib olduğundan daha da sərfəli sahib olacaqların varsa niyə də ona sahib olmaq üçün əlləşməyəsən, hətta bu uğurda sahib olduğundan vaz keçməyi belə gözə almayasan? Çünki həyat heç bir vaxt bir əldə iki qarpızı bir zaman kəsiyində tutmağa nə imkan verir, nə də sənə bunun üçün şərait yaradır. (Bəlkə

də bu onun ədalətindən irəli gəlir və ilk baxışdan bunu qəbul etmək istəməsək belə sonda agah olub razılaşırıq.) Hər zaman ikisindən birini əlinə alıb, digərini atmağını və yaxud da əgər sənə sərf edirsə növbəli şəkildə tutmağını məcbur edir. Və əlbəttə ki, biz də hansı daha sərfəlidirsə onu seçib digərini birdəfəlik tullayırıq. Sərfəli dedikdə... Əslində sərfəli dedikdə insan sayı qədər fərqlilik və bəzi məqamlarda gülünc görünsə belə rəngarənglik nəzərdə tutula bilər. Məncə, rəngarənglik sadəcə gözəl bir əşyanı və yaxud anlayışı mədh edən zaman istifadə olunmalıdır. Çünki, rəngarənlik həqiqətən rəngə sahib olmaqda bir növ irəli getmək və bir neçə rəngə sahib olmaq deməkdir. İnsanların özlərinə sərf eləyən bəzi məsələlərdə isə rəngarənglik sözünün işlədilməsi heç də onun ənənəvi mənasına uyğun gəlmir...

Həyatboyu qarşılaşdığımız faktorlar içərisində sössüz ki, ən danılmazı hər kəsin bir gün mütləq dadıb birdəfəlik uzaqlaşacağı və heç bir vaxt geri qayıda bilməyəcəyinin inkaredilməz olmasıdır. Hər şey müvəqqətidir. Çünki daimi olmayan bir məfhumun nə qədər çox şaxəli görünsə belə öz zənginliyi də daimi var ola bilməz, ətrafda fiziki

olaraq mövcud olan bütün varlıqlara şamil edilmiş bir fikir kimi səciyyələndirmək olar bu fikri. Bəzən hər şeyin sanki növbəli olması kimi fikirlər də beynimdən keçmir deyil. Yəni ki, növbəli həyat... Bir neçə il əvvəl soyuq və yağışlı bir qış gecəsində ani olaraq belə bir düşüncə elə yağış damcılarının sürəti tək gəlib keçdi fikirlərimin ən dərin qatlarından, hətta dərinlikdən tam ayırd edib dəqiqliyinə vara da bilmədən uzaqlaşdı. Dayandığım blokla üzbəüz dayanacaqda bir neçə islanmış maşın və onların söhbət edən sahibləri, göydən dümdüz düşən yağış damcıları... Sanki ibtidai sinif şagirdi rəsm dərsi tapşırığı olaraq yağışı təsvir edir və qara karandaşla damcıları düz şəkildə çəkir, axı hələ təsəvvürlər tam formalaşmayıb, formalaşmasa belə bəlkə də lap dəqiq və düzgün təsvir edir, nə bilmək olar... Həyatın çox kiçik və bir o qədər də mənasız, sıradan görünən epizodik təsviri hər insana bir cür qavrayış aşılasa da mənə özüməxas bir təsir göstərib və bu təsir hələ də davam edib cazibəsindən uzaqlaşmağıma imkan verməyib, daima daxilimdə dolaşır, fikirlərimi oğurlayıb səhvə doğru sürükləyir məni.

Növbəli həyat təsəvvürünə qayıdıram. Hə, bəzən ani olaraq şahidi olduğum həyat fraqmentləri belə düşünməyimə istəmədən səbəb olur və sanki təsəvvürümdə insanların növbəli şəkildə yaşadıqları canlanır. Hamı bir gün gəlib, yəni ki, növbə başlayıb və gələcək növbə üçün mütləq nələrisə hazırlamaq və vaxtı çatanda növbəni dərhal təhvil verib getmək vacibdir. İstəsən də, hətta istəməsən də... Çoxları növbədə olduğunun fərqində olsa belə, bəziləri var ki, özlərini həmişəlik hesab edib növbəni elə başlanğıcda unudur, amma tam əksinə bəziləri bitəcəyini bilərəkdən unudub anı yaşayır, nə əvvəlki növbələri düşünür, nə də ki, gələcək növbələri. Hər insan anı fərqli cür yaşayıb dəyərləndirir və yaxud da sadəcə anını dəyərsizləşdirib heçə verir, təəssüf ki, bunu ən sonda, yəni ki, növbəni təhvil verəndə anlasa belə artıq bitdiyindən geri qayıdış üçün də imkanlar tükənir. Bəzi vicdanlı növbəlilər isə sadəcə gələcək növbələr üçün veriləcək cavabları və təhvil veriləcək yenilikləri hazırlayır, ziyanlı vərdişlərdən uzaq qaçaraq yalnız yaxşı nəticələrə nail olmaq üçün çalışır və növbədəyişmə günü çatdıqda başını dik tutub tərk edir növbə yerini və bitir... Bəziləri harada və niyə olduğunu çox gözəl anlayır, buna

uyğun olaraq qurur həyat və fəaliyyətini və lakin bəziləri tamamilə ayrı istiqamətlər üzrə yaşayıb sonda məhvə məhkum olur... (Növbəlilik prinsipini təkcə canlılara yox eləcə də cansızlara aid etmək olar, hansı ki, gündəlik həyatımızın ayrılmaz parçasına çevrilib.)

## 02.

## Gerçək yaxud gerçək olmayan

*(1 il qabaq...)*

Bütün düşüncələr kimi bu günkülər də sıradan və səbəbsiz olaraq cücərməyə başlayırdı. Mən öz şəhərimdən min kilometrlərlə uzaq olan bir şəhərdə kiçik və adiliyi ilə digərlərindən zərrə qədər də fərqlənməyən bir həyətdəydim, yaşayış binasına arxamı çevirib köhnə və taxtaları çürük olan skamyada oturub sadəcə bu düşüncələri keçirirdim özlüyümdə. Düşüncələr sərhəd tanımır, zaman və

məkan fərqliliklərinə isə kiçik bir qətrə dərəcəsində belə əhəmiyyət vermir. Bu şəhərdə milyonlarla insan yaşamasına baxmayaraq hal-hazırda həyətdə mən tənha hiss edirdim özümü, lakin hər bir halda bu mənə xoş təəssürat bağışlayırdı, hansı ki, sanki uşaqlıqdan bəri ən böyük arzum olan gözəgörünməzliyə nail olduğumu sanırdım. Bu şəhərdəki milyonlarla insanın heç biri məni görmürdü, daha doğrusu hiss etmirdi, fiziki olaraq gözlərinin önündən addımlayıb keçirdim, ancaq heç kim mənə fikir vermirdi, hətta əcnəbi olsam belə onların heç birinin diqqətini cəlb edə bilmirdim, fərqimə varmağa can atmırdılar. Məni özünə cəlb edib bu şəhərə məftun edən də məhz bu etinasızlığın özündən başqa bir şey deyildi, sevinirdim buna, sonunda arzuma çata bildiyimə, hətta bunun müqabilində min kilometrlərə sinə gərmək çətinliyinə qatlaşmağım bahasına olsa belə bu anın şirinliyi unutdururdu hər şeyi, özündən başqa əhəmiyyətsiz saydığı bütün heçliklərin özü səviyyəsinə qalxmasına hər türlü vasitələrlə mane olmağa çalışır və ən əsası da buna özünü sevdirməklə nail olurdu. “An” qalib gəlirdi mənim öz qənaətlərimə, hər nə var idisə mənim gözümdə qənaətbəxş, hətta yaxşı dərəcəyə yüksəlir, istəklərimin başlamasına ehtiyac duyulmurdu.

Qıraqdakı köhnə əsrdən qalma uşaq atraksionları əskimiş, mütəmadi boyalanmadığından pas atıb əcaib bir şəkil almışdı. İstənilən var oluşa pozitiv və yaxud da tam əksi neqativ düşüncələrlə yanaşmaq insanın öz əlindədir. Həmin vaxt sıxıcı ürəkaçan da ola bilər, pis isə yaxşı, yaxud da köhnə yenilikdən daha dəyərli və qiymətli olması ilə əhəmiyyət kəsb edə bilər. Necə ki, elə bu anda əski əşyalar mənə bu şəhərin köhnə xatirələrindən xəbər verirdi. Burada sayını təsəvvürümə gətirə bilmədiyim qədər uşaq oynayıb əylənmiş, amma sonralar, yəni ki, indi tərk edib bir daha ayaq basmamışdılar bu meydançaya. Xatirələr qarşılıqlı sevgiyə bənzəyir və ilk olaraq məhz qarşı tərəfdən cəhd gözləyir, bilərəkdən öz-özünə peyda olmur. Bəziləri xatirələrə ehtiyacsızlıq hiss edir şəxsi həyatında, onlara yer verməyə can atmır, tam əksi olaraq isə bəziləri xatirələrsiz var ola bilmir. Qısası tamamilə insanın özündən asılı olub - istər yaranması, istərsə də məhv olub heç başlamaması.

Yelləncəkdə oynayan iki uşaq həvəsli şəkildə söhbət edir, bu söhbətdən daha çox mübahisəyə oxşayır, mən belə təsvir verə bilirəm ancaq. Düzdür, səslərini eşidirəm, amma dillərini anlaya bilmirəm. Dil mənimlə bu iki uşaq arasında tikanlı bir məftil

çəkib, dəqiq bilirəm ki, onlar da mənim danışdığım dili anlamazlar. Axı bizim dilimiz də az yayılan dillərdən biridir, dünyanın çox az bir qisminin belə bir dildən xəbəri var, hətta biz özümüz də bəzən dilimizdə danışmağa ehtiyac duymuruq, qalmışdı ki, hansısa əcnəbilər dilimizi öyrənməyə can atsın. Hər bir dilin cazibəsi ilk öncə onu danışanların kimliyindən və həmin dilə yanaşmalarından asılıdır, xarici rəğbət və yaxud da diqqətsizliklərin də yaranma səbəbləri bununla sıx bağlıdır. Əslində dil, mənim fikrimcə, ən böyük möcüzələrdəndir, bəzən fərqli düşündükdə mən möcüzənin kəşfini insanövladına dəxi aid etmirəm. Əgər bu möcüzə səviyyəsində qiymət almağı bacarırsa, deməli, insanın yaratdığı tək qiymət verib dəyərsizləşdirməyin də heç bir adı yoxdur. Dil ünsiyyət vasitəsidir və məncə bundan sonra milyon il keçsə belə insanlar ünsiyyət vasitəsi kimi dilə alternativ digər bir "möcüzə" tapa bilməyəcəklər, o, öz sahəsində əvəzolunmazdır və elə əvəzolunmaz olaraq da başa vuracaq.  Amma bax bu kimi anlarda dil sanki ünsiyyət yox, əksinə ünsiyyətin başlamasına əsas maneə vasitəsi ola bilir, mən danışdığımı onlar anlamır, bu iki uşağın dediklərindən isə mən heç bir zad başa düşə bilmirəm. Bax elə tam budur insanın "möcüzə" hesab etdiyi, yəni ki, əsl

möcüzənin eynisini fərqli cür yaradıb guya ki, imkanları genişləndirmək və lakin bu imkanları məhdudlaşdırmaqdan başqa heç bir şey deyil. Axı əksər insanlar fərqliliyi xoşlayır: fərqli dil, din, tərz, yanaşma, yaşam, hətta ölüm də, hansı sahəyə aid olmasının heç bir əhəmiyyəti yoxdur, önəmli olan odur ki, sənin sahib olduğun başqalarınınkından fərqlidir, pis və yaxud yaxşı olması da heç kimi maraqlandırmır, əsas odur ki, fərqlən... Hər bir anlayışda fərqlilik axtarmaq artıq heç də fərqli bir təəssürat oyatmır və hər birimiz buna çoxdan alışıb gündəlik yaşamımızın bir parçası tək qəbul etmişik. Üzbəüzdəki ikimərtəbəli köhnə binaya tez-tez kimlərsə girib-çıxır, arabir maşın dayanır giriş qapısında, bir neçə dəqiqə sonra aralanır. Bura şəhər sakinlərinin ibadət etdiyi yerlərdən biridir, halbuki mənim onların inanc və ibadətləri hqqında heç bir məlumatım yoxdur, bu məni o qədər də maraqlandırmır. Axı bu məsələ modern dünyanın ən yaralı yeridir, bəlkə də dünyanın ölüb məhv olmasına da bu yara səbəb olacaq, getdikcə dərinləşib daha ciddi şəkil alan yaranın sağaldılması böyük bir kütlənin sadəcə kiçik bir qismini narahat edir və bu qismin sıraları da ilbəil seyrəlib sona doğru yaxınlaşır. Böyük bir qism digər böyük bir qismi heç vəchlə

qəbul etmir və elə bu qismlər özlüyündə də kiçik qismlərə parçalanıb səpələnir dünyanın müxtəlif yerlərinə, düzünü desəm, artıq kifayət qədər parçalanmalara məruz qalıb insanlar tərəfindən. Günbəgün sayı artan digər bir qism isə uzaq qaçmaqla, özünü və düşüncələrini heç bu məsələyə qatmamaqla təmizə çıxartmağa çalışır özünü, bu addımını digərlərinə baxıb örnək götürməklə daha düzgün hesab edir və elə bəlkə də onların sayının durmadan artmasına əsas səbəb də elə bunun özüdür – digərlərinə baş qoşmamaq... Belələrini necə adlandırmaq gərəkdiyini dəqiq bilmirəm: kor? qorxaq?

İnsan ömrünün müxtəlif mərhələlərində qüvvədə olub öz təsirini əsirgəməyən minlərlə əşya və ya ünvanlar var olur. Mükəmməl şəkildə hesablanmış növbəyə uyğun olaraq daxil və yaxud da xaric olanlar, bir-birini əvəzləyənlər və sonra da başqaları ilə əvəzlənənlər. Hər biri də özünəxas bir funksiyanı icra edib yerinə yetirir vəzifəsini, bəziləri istifadədən yorulur, bəziləri isə istifadəsizlikdən... Hər gün yüzlərlə, bəlkə də bəzi qeyri-adi günlərdə minlərlə əşyadan istifadə edirik, çoxlarını da istifadəyə yarasız hala salana qədər əl çəkmir, öz ziyanımızı vurmaqdan

heç cür çəkinmirik. İnsan həyatında var olan bir çox məfhumlar kimi günümüzün əsas fiqurlarından birinə çevrilən əşyalar da bizim təsirlərimizdən kənarda qala bilmir, insan yaşadıqca məhv etməyə məcbur olduğunu hiss edir və bu hissiyat onu qarabaqara izləyib ta ki, son nəfəsinə çatdırana qədər mübarizəsinə fasilə vermir. Şosse yol ilə sürətlə şütüyərək keçən avtomobilin ön oturacağında əyləşib şüşədən ətrafa boylanmaq kimidir bəzən - sən irəliləyirsən, lakin ətrafında nə varsa hamısı geridə qalır, sən heç bir vaxt yalnızlıq hiss etmirsən, çünki geridə qalanların onlardan daha yaxşı əvəzləri irəlidə səni gözləyir, bir-bir əvəzlənir, hətta bəziləri özünə daimi yer etməyi belə bacarır sənin şüurunda, əbədi həkk olunub heç kim tərəfindən əvəzlənə bilməyəcəyi əminliyini doğurmağa nail olur. Hər şey bircə anın içində baş verməyə başlayır və elə başlayan kimi də bitib-tükənir, bəzilərini görməyə ayırdığın vaxt əslində ondan daha çox və bəlkə də daha xeyirli olan başqalarını qulaqardı və yaxud da gözdəniraq salmağına səbəb olur, fərq etməz bu sənin xəbərin çərçivəsində baş verir yoxsa ki, tam əksi... Önəmli olan davamiyyətdir və bu davamiyyətdə sənin kim və nələrlə davam etməyin o qədər də böyük əhəmiyyət kəsb etmir, nə vaxta qədər və yaxud hansı üsullarla,

qoy hər şey və hər kəs sənə lap yadplanetli görmüş tək nəzər salsın, bəlkə də çoxları səhv yolda olduğunu düşünüb sənə acıyacaq, bəzi, sözün əsl mənasında, yaxşı insanlar kömək etməyə çalışacaq, lakin sən öz yolundan dönməyi qətiyyətlə kənara atmalı və ən əsası da inandığın yola davam etməlisən. Metro stansiyasında hamının məcbur olaraq boşaldıldığı və depoya gedəcək qatar deyə elan olunan vaqonların birində oturmaq kimi düşün bəzən və ən önəmlisi də bunu hiss et, hansı ki, çoxları səni görüb səhv istiqamətdə getdiyini düşünür və lakin sən özünə gərək olanı yaxşı bilirsən, bütün diqqətin bu istiqamətə yönəlib, kimlərinsə nə düşünməsi önəmli deyil, vacib olan səni öz məqsədlərinə aparan düşüncələrindir...

Gerçəklə gerçək omayan arasındakı tük qədərlik fərqi bəzən itirib boşluğa qərq edirəm özümü, zamanımdan əvvəlki olanlar haqqında təsəvvürsüz qalıram. Necə ki, indi tam dəqiqləşdirməyə qadir ola bilmirdim, axı hansı zamandayam? Gerçək yoxsa gerçək olmayıb yalnız mənim üçün dövr edən? Buraya, bu şəhərə necə gəlib düşdüyümü bilmirəm, lap elə bu sıradan insanların yaşadığı məhəlləyə, bu sınıq-salxaq skamyaya necə gəlmişəm? Niyə?

Hardan? Nə vaxt və kiminlə, kimlərlə? Yoxsa tək, nə səbəbə?

Dəqiq bilirəm ki, məni buraya gəlməyə vadar edən də məhz "onlar"dır, axı hər şey "onlar"la başladı, bəlkə də bu gün bitəcək və yaxud da sıradan olaraq davam edəcək həmişəki kimi... Belə anlarda həkimə haqq verməyə məcbur oluram, səhvimi anlayıram, o, düz deyir, mənsə özümə inanıram, daha doğrusu bu inanca məcbur hiss edib başqa əlacım olmadığını düşünürəm, qoy hər şey axarıyca davam edib sonsuzluğadək izləsin məni. Bəlkə bu gün "onlar"la tanış olmaq üçün qərar verilmiş ilk gündür, bunun tam zamanı olduğunu bir neçə gün öncədən də hiss edirdim, neçə vaxtdır həyatıma daxil olub məni mənə tanıdan "onlar" indi əsl üzünlərini göstərib bütün cavabsız suallara aydınlıq gətirəcək və yaxud da bütün cavabları puça çıxaracaq sualı verəcək və mən haqlı olduğuma əmin olub bütün şübhələri bir andaca sındırıb çilik-çilik edəcəm. Hər şey elektron poçtuma gələn anonim məktublarla başladı, mütəmadi olaraq qısa cümlələr şəklində yazılan bu xarici dilli məktublar ilk əvvəllər zərrə qədərlik də diqqətimi çəkmirdi. Axı bu tipli diqqət çəkməyə çalışan məktublar tez-tez yollanılır hər kəsə, hansı ki, sonda

kiçik bir məbləğ qarşılığında bütün arzulara çatdıracaq bəxşişlər vəd edib aldatmağa çalışır, bəzi hallarda nail olduğunu söyləmək də yanlış olmazdı... Mütəmadi olaraq gələn məktublar sonralar ardıcıl bir şəkildə gəlməyə başladı və mən hər gün gecə yarısına on beş dəqiqə qalmış həmin məktubları gözləməyə başladım. Artıq diqqətlə oxuyub kiçik mətnlərdə böyük mənalar tapmağa can atırdım, qeydlərimi yazıb qovluq şəklində arxivləşdirirdim, mətndəki cümlələrin quruluşunu, sözlərin sayındaki gizli məna çalarlarını duymaq üçün bəzən saatlarca gözümü monitordan çəkmirdim... Mətndəki rəqəmlərdə subliminal mesajların gizli olduğuna əmin idim, hətta sözlərdəki hərf sayları, ardıcıllıqlar gözümdən yayına bilməzdi, nə yazıldığını isə heç cür yoza bilmirdim... Bəzən mətnlər paradokslar şəklində olurdu, bəzən isə sadəcə paradoks şəkillərdən ibarət olaraq göndərilirdi. Amma bir müddət sonra məktubların mövzusu dəyişməyə və aydınlaşmağa başladı, nə istədiklərini bəzən açıq-aydın yazmaqdan belə çəkinmirdilər. Məni özümə önəmli hiss etdirmək və hər şeydən əvvəl də hamıdan fərqli olduğumu sübut etməyə çalışırdılar, hansı ki, ilk öncələr bu mənə sadəcə absurd fikir kimi səslənmişdi, lakin sonralar mənim haqqımda çox şeyi bildiklərini hiss etdim, hə düzdür, məni lap gözəl, hətta özüm

qədər yaxın tanıyırdılar, ən önəmlisi isə nə hiss etdiklərimi olduğu tək duyub zəif damarımı tutmağa çalışırdılar. Axı bu tipli: özümü hamıdan fərqli hiss etmək xülyaları məndə hələ uşaq, məktəbli illərindən yaranmışdı və həyatımın sonrakı bütün mərhələsində məni tərk etməyib, əksinə daha da möhkəmlənmişdi. Mən daima özümü fərqli qəbul edirdim ətrafımdakılardan, yaşıdlarımdan daim düşüncələrimlə bir addım qabaqda olduğumu zənn edib sevinc, simpatiya formalaşdırırdım özümə qarşı. Buna əmin idim, hətta özüməxas sübutlarım da var idi, düzdür, bəlkə də o sübutlar indi mənə gülünc gələ bilərdi, amma hər anın öz hökmü və bu hökmə uyğun düşüncə tərzləri olduğunu nəzərə alsaq tamamilə haqlı çıxırdım. Mən ətrafımdakılardan diqqətimlə fərqlənirdim, onlar küçə ilə gedən qızın ayaqlarının quruluşuna diqqət etdikləri halda mənsə bunun fərqinə belə varmırdım, mənə maraqlı olan onun, yeni bir insanın nə düşündüyü, düşüncə tərzinin hansı istiqamətdə olduğu idi, axı hər insan özlüyündə böyük bir kəşf olunmamış dünya idi, hətta bəzən o dünyanın özünün özündən belə xəbəri olmur. Və bu düşüncə tərzlərinin bədən gözəlliyi və yaxud şəhvətli cazibəsi ilə heç bir əlaqəsi yox idi. Məncə, ən böyük bədbəxtliyin özü də bundan başqa bir şey deyildi,

məhz səthiliyin, ucuzluğun da əsl səbəbi elə bu idi - özünü tanımamaq və tanıya bilməyin fərqinə belə varmamaq ən hündür uçurumun kəlləsində rahatca dolaşmaq, xəbərsizliyin axırıncı dayanacağından sürətlə ötüb keçmək və arxaya çevrilib baxmamaq tək qiymətləndirilə bilərdi. Amma mən xoşbəxtlikdən onlar kimi deyildim, bunu yaradılışımla əlaqələndirib öyünməməyə çalışırdım, axı düşüncələrim formalaşmağa başlayanda mən onları idarə etmək bacarığında deyildim, yaxud da hansısa istiqamətin düz olduğu qənaətinə gəlib o tərəfə çəkməyə nail ola bilməzdim. Əslində düşüncə və hissiyatımız da elə fiziki orqanlarımızdan quruluş etibarilə əsaslı şəkildə fərqlənmirdi. Necə ki, uşaq olduğumuz vaxtlarda fiziki orqanlarımız kimi hissi orqanlarımızı və düşüncələrimiz də kövrək və formalaşmamış olur və illər keçdikcə qarşılaşdıqlarımıza tab gətirərək formalaşıb müxtəlif formalar alır, həyat sürdükcə ona uyğunlaşmaq və ən əsası da ondan geri qalmamağa çalışır, digər orqanlarımız kimi onlar da qocalıb əldən düşür, bəzi hisslər vaxtından əvvəl qırılıb ölür, öz funksiyasından uzaqlaşıb yoxa çıxır, amma tam əksinə bəziləri ömürümüzün son saniyəsinə kimi bizi tək qoymur, elə gəldiyi sağlamlıq tək baş alıb gedir. Bax məni başqalarından fərqləndirən əsas cəhət də

məhz budur, yəni ki, gözə görünənlərlə görünməyənlər arasındakı ortaq və fərqli cəhətləri duya bilmək və onları lazımınca qiymətləndirmək və yaxud da qiymətsizliyinə qərar vermək. “Onlar” da bunu çox yaxşı bilirdilər və elə bu səbəbdəndir ki, məni seçib bu gün buraya qədər gətirməyə vadar etmişdilər, öz sehirli sözləri ilə yoldan çıxartmağa, bəlkə də əsl həqiqət yoluna gətirməyə nail olmuşdular, elə mən özüm də sanki neçəildir bu kimi təklifləri gözləyirmiş kimi qəbullənmişdim bütün yaşadıqlarımı və daha sonralar da yaşayacaqlarımı. Qoy hər şey öz axarı tək davam edib mənsəbinə qovuşsun, ən azından mənim də kiçik bir xeyrim olardı bu məsələdə. Önəmli olduğum və elə bu şəhərdəki, lap bu həyətdə yaşayan insanlardan üstün olduğuma əmin idim, məni xüsusi vəzifələr üçün seçmişdilər və bir azdan bu vəzifələr başlayacaqdı. Mən bunun öhdəsindən gələcəyimə əmin idim, axı “onlar”ın göndərdiyi şifrəli məktubları oxuya bilmişdim, deməli, “onlar”ın əsl axtardığı adamam, “onlar”a elə mənim kimisi lazımdır və bir azdan peyda olub həqiqi üzlərini göstərəcəklər. Məktublar qara rəngli orta ölçülü bir qutu təsiri bağışlayırdı mənə, hansı ki, qutunun hansı tərəfinin üst və yaxud da alt olduğunu anlamaq mümkün olmurdu, heç bir

fərq yox idi və ağırlığı da sanki heç bir çəkiyə uyğun gəlmirdi... Hər bir qaranlıq məqamda iynə ucu böyüklüyündə bir çıxış qapısı var və onu tapmaq deyim yerində isə qaranlıq otaqda iynəni saplamaq kimi çətin idi, lakin mən bunu çox gözəl bacarırdım, qara qutu tipli məktublar mənə rəngli kağızlarla bükülmüş hədiyyə paketləri tək təsir bağışlayır və eyni dərəcədə sevindirirdi məni. Bundan gözəl hədiyyə ola bilməzdi mənə, özü də həyatımın belə çətin anlarında, sanki həkimlərin diaqnoz qoyduqları xəstəliyimin əsas dərmanı idi, halıma yanan kimlərsə mənə qarşılıqsız göndərirdi belə hədiyyələri və mən də ürəklə qəbul edib inanırdım "onlar"ın həqiqiliyinə və səmimiyyətinə...

**03.**

# Başlanğıc

(Cabbar)

Yuxudan ayıldıqda anlaya bildi ancaq... Uzandığı yerin, yəni ki, betonun soyuqluğunu yanağında hiss etdi və daha sonra bütün vücudu buz kəsilmiş kimi üşüməyə başladı, sanki ayaq barmaqlarının ucuna küt bir iynəni batırmağa çalışırdılar, hətta dırnaqları, dişləri, saç tükləri belə üşüyürdü. Bir müddət beləcə dayanıb donub-donmadığına əmin olmağa çalışdı, hərəkətsiz uzanaraq sanki bütün vücudundakı çıxıntıları yoxladı, yalnız hissiyatla yoxlayıb canlılığına əmin oldu. Başını qaldırıb dikəlməyə çalışdıqda bütün bədənini əhatə etmiş ağrını hiss etdi, lakin artıq gec idi və sancılar yenidən qənim kəsilmişdi varlığına. Otaqda yeganə əşya sayıla biləcək oturacağa dirsəklənib ayağa qalxdı və daha sonra həmin oturacağa çöküb əlləri ilə başını ovuşdurdu. “Görəsən, saat neçədə, gecənin hansı vədəsində onu buraya gətirib tullayıblar və indi günün hansı vədəsinin sürətlə irəliləyən saatıdır? Bir gün keçib yoxsa cəmisi bir neçə saatlıq yuxuya gedib? Bəlkə də bir yox bir neçə gün keçib və bəlkə də o, dəfələrlə ayılsa da yuxudan tam ayrıla bilməyib...”

Bu vəziyyət daha bundan artıq davam edə bilməz... Gücü və səbri tükənmişdi, dözə bilmirdi bağırsaq kimi düşdüyü durumun daha da uzanmasına və sonu görünməyən bir qaranlığa doğru onu sürükləməsinə. Soyuq, zülmət və heç bir əşyanın olmadığı, havası çatışmayan, yalnız giriş qapısındakı daimi qapalı olan nəfəslikli kamera. Bəlkə də onu dəli etməyə çalışırlar və yaxud da bütün bu həngamələr ağlını başına gətirməkdən ötrü oynanılırdı, halbuki, aylardır davam edən araşdırma, istintaq materialları, hadisə yerindən götürülən detallar, bitib-tükənməyən sorğulamaların heç bir xeyri və zərrə qədərlik irəliləyişi belə nəzərə çarpmırdı. Nəyi gözləyirdilər axı, bu günə kimi bu böyüklükdə bir təşkilat nədən ötrü bir qərara gələ bilmir və yaxud gəlmək istəmir, bu vəziyyəti bacardıqları qədər uzatmağa can atıb mürəkkəbləşdirirlər. Axı hanı haqqında ağızdolusu danışdıqları mütəxəssisləri?

Mən ki bütün günahımı boynuma götürüb etiraf etmişəm hər şeyi, indi nə fərqi var neçə nəfər öldürülüb, beş, on və yaxud əlli, yüz... Ya cəzamı verib birdəfəlik son qoyun bu gülməliliklərə, ya da ki, buraxın məni gedim... Yox, mən bunu sadəcə

əsəbi olduğum zamanlarda bu cür düşünürəm, əminəm ki, məni heç bir cəzasız sərbəst buraxmaqlarına razı olmayacam... Amma həm də əminəm ki, mən bütün günahkar əməllərimi affekt vəziyyətində törətdiyimi də sübut edə bilməyəcəm. Axı sual verəcəklər niyə, nə səbəbə? Və mən heç bir cavab verə bilmədən susacam, axı bu sualların cavabları, nə qədər gülünc səslənsə də, mənim özümə də maraqlıdır... Niyə və yaxud da ilk sualı belə qoymaq olar – kimlər? Onlar kim idi, mənim evimdə nə edirdilər, səssizcə oturub dinmirdilər, hətta özləri öz aralarında belə danışmadan susur, məni daha da təlaşlandırırdılar. Çox qəribə görkəmləri var idi və mən heç bir şübhəsiz əminəm ki, onları ilk dəfə idi görürdüm, bəlkə də bu dünyadan deyildilər, başqa bir aləmdən düşmüşdülər mənim evimə, ancaq məni gördükdə heç bir təccüb hissi keçirmədilər, sanki lap gəlişimi çoxdandır gözləyirlərmiş kimi... Amma təəccübsüz-filansız, sakitcə üzümə baxdılar, mən bir neçə kəlməlik qısa-qısa cümlələr qurdum, indi tək bir sözü belə yadımda qalmasa da ilk mən danışdığımı xatırlayıram. Sonra sırayla onlar da danışmağa başladı, lakin mən heç nə anlamırdım, səsləri çox alçaq səslənirdi, sakit və təmkinli danışırdılar, bəzi

sözlər tanış gəlir, amma tam anlaya bilmirdim... Və sonra hər şey başladı, daha doğrusu başlamadan bitti... Gözlərimi açdıqda burada gördüm özümü, bir neçə gün sonra hər şeyi anlaya bildim, indi nə qədər çalışsam da tam dəqiq xatırlaya bilmirəm olanları, bəlkə də olduğu kimi xatırlayıram, sadəcə baş verən hadisə çox anlaşılmaz və mürəkkəbdir. Anlamıram və yaşadığım, lakin anlamadığım hadisəni burdakılara da izah edib anlamalarına nail ola bilmirəm...

Burada ilk öncə zaman anlayışını itirdim, dəqiqə, saat, gün kimi vaxt ayırmaları yoxa çıxıb uzaqlaşdı məndən və mən zamansızlığa təslim oldum, sonralar sırf özüməxas bir zaman anlayışı da kəşf etdim, amma çox sonralar, yəni ki, burdakı şəraitə uyğunlaşdıqdan sonra bu baş verdi. Deməli, zaman və vaxt kimi həyatımızın ayrılmaz parçası hesab etdiyimiz anlayışlar əslində beynimizə məcburən qəbul etdirdiyimiz və bütün varlığımızla olmazsa-olmazlığına özümüzü inandırdığımız sıradan bir anlayış imiş. Ona diqqət etmədikdə yox ola biləcək qədər gücsüz və bizim üçün heç sayılacaq səviyyədə əhəmiyyətsiz, hətta var olmaq üçün bizim qiymətləndirməmizə daim ehtiyac

duyan... Necə ki, indi mən zamansız yaşayıram və ona zərrə qədər belə ehtiyac duyub yoxluğunu hiss etmirəm, sadəcə bəzi boş anlarda, hərçənd ki, burada bütün anım boşluqdan başqa bir şey deyil, onun üçün darıxıram və zamanla idarə olunan günlərimə sanki paxıllığım tutur.

Hə, bayaqkı fikir tamamilə doğru idi, yəni ki, məni dəli etməyə çalışırlar, hətta buna azacıq da olsa nail olduqlarını sanırlar, bu da onları zəfərə atılan ilk addım qədər sevindirir. Lakin bu büsbütün yanlışdır, mən bura gəldiyim gün tək ağıllı və dərrakə qabiliyyəti yerində olan birisiyəm. Bu boş və qaranlıq kamerada məni özümlə tənhalaşdırıb nələrəsə nail olduqlarını düşünürlər. Düşünürlər ki, darıxacam, sıxıntı keçirib öz-özümlə danışıcam, hətta yalnız və yalnız düşünməkdən ağlımı itirəcəm, sonda da hər şeyi həyatımdan ucuz hesab edib etiraf edəcəm. Əlbəttə, bu işin ən asan və nə qədər mürəkkəb görünsə belə ən sadə tərəfidir. Həqiqətən, doğrudur və artıq sübut edildiyindən isbatına da heç bir ehtiyac olmayan təcrübədir ki, insanı tənhalaşdırmaq əslində onu qətrə-qətrə dəli etməkdir. Bu təcrübədən bu gün, demək olar ki, bütün dünyada istifadə olunur və elə hər yerdə də

mühüm nəticələrə gətirib çıxarır. Ən mürəkkəb cinayətlərin qatı cinayətkarları belə dəlilləşməyə razı olmayıb etiraflara məcbur olur. Ancaq mən etiraflarımı elə gəldiyim ilk günündən heç bir məcburiyyət olmadan etmişəm. Sözlərimi qeyri-ciddi hesab etdikdən sonra təzyiqlər başladı və bitib-tükənməyən sorğulama müddəti, hansı ki, hələ də davam edir. Sözlərim inandırıcı olmadığı qədər müəllifi olduğum cinayət də məntiqsiz və anlaşılmaz idi. Cinayəti etiraf etsəm də buna dair heç bir şahid və məni suçlu göstərəcək heç bir əsaslı və yaxud əsassız bir dəlil tapa bilmədilər, hələ də bütün təşkilat bütün canfəşanlığı ilə çalışır və mən əminəm ki, heç nə tapa da bilməyəcəklər və mən istədiyim zaman buranı tərk edib azadlığıma və var olan zamanıma qayıda biləcəm, hə, istədiyim an bunu edə bilsəm də haqsızlığıa göz yuma bilmirəm və həmin beş qətlin hər birində özümü günahkar hesab edirəm, günahımı bütün bu təşkilatın işçiləri kimi özümə sübut edə bilməsəm belə...

Balaca bir kamera, daha doğrusu ən qatı cinayətkarların saxlandığı saxlama otağı idi və ölçüləri ancaq iki metrənin iki metrəyə olardı, bəlkə

də daha balaca, sonsuz boş zamanlarımda ölçmək ağlıma gəlməmişdi, ancaq sonralar soyuq xatirələrdə canlandıra bilirdim. Qapıyla üzbəüz balaca bir skamya qoyulmuşdu, hansı ki, düz uzandıqda ya başım aşağı düşürdü, ya da ki ayaqlarım göydə asılı vəziyyətdə qalıb narahat edirdi, belə yatmaq mümkün deyildi, ancaq bəzi vaxtlar sorğular məni o qədər çox yorurdu ki, uzanmağımın necəliyindən asılı olmayaraq dərin bir yuxuya gedib azadlığa çıxırdım bütün bu qəribəliklərdən, qaranlıq kameradan və zamansız həyatımdan. Yuxularımda həm zaman var idi, həm də insanlar, işıq və gözəlliklər, amma eyni zamanda sirlər, şifrələr, gizli mənalı min bir adlılar, adsızlar, məni yoldan çıxarmağa və yeni bir cinayətlər qrupuna sürükləməyə can atan məfhumlar, anlaşılmaz anlayışlar... Skamyayla üzbəüz qalın qara qapının üst hissəsində balaca bir nəfəslik var idi, heç vaxt açıq qoymazdılar ki, içəri azacıq da olsa işıq düşsün və yaxud səs eşidilsin, onsuz da qapının açıldığı səssiz koridorda heç bir həyat gurultusu eşidilməzdi. Arabir ağır ayaqqabı dabanlarının döyəclədiyi döşəmənin səs və cırıltısından başqa heç bir səs cıqqırtısı belə yox idi. Koridorda yalnız bir polis nəfəri bütün sutkanı

növbə çəkirdi və səhər saat səkkizdə növbə dəyişdirilərdi, bir də axşam saat səkkizdə, yəni ki, gündə iki nəfər və iki növbə. Saat və zaman anlayışının başlanğıcı mənim üçün sadəcə bundan ibarət idi, növbə dəyişmələrinin bəzən səsini eşidib zamanı uyğunlaşdırardım, bəzən isə gözləsəm də heç eşitməzdim. Qəribə idi, görəsən divarların qalınlığı nə qədər idi ki, heç bir səs eşidilmirdi, hətta yumruqlarımı arabir möhkəm döyəcləyirdim ki, bu qalın divarların əks tərəfi çöldür yoxsa başqa kamera, divarın o biri tərəfində azad insanlar dolaşır yoxsa elə onları da mənim kimi bu qalın divarın qalınlığı və onun əks tərəfində nələrin olması maraqlandırır... Burada məndən əvvəl vaxt keçirənləri düşünürdüm bəzi vaxtlar, görəsən, neçəsi dəli olub qurtarıb buradan və yaxud neçəsi canını qurtara bilib azadlığa çıxıb və yaxud da elə buradaca canını tapşırıb. Yəqin ki, ürəyi partlayıb, dözə bilməyib qaranlıq otaqda qara divarların onu sıxmasından, üzərinə-üzərinə gəlib kameranı havasızlaşdırmasından. Zatən başqa cür bir ölüm düşünülə bilməz, intihar da ki, onsuz da mümkün deyil, axı nə ilə, necə, nə vaxt, hansı üsulla?

Bəzən düşünürdüm ki, artıq yavaş-yavaş dəli olmağa başlayıram, bəlkə də lap bura gəlməmişdən başlayıb məndə dəli olmağın ilk rüşeymləri və boy ataraq sonda işlədiyim cinayət vasitəsilə bura urcah edib, getdikcə daha da dərin kök salmağa başlayır burdakıların köməyi ilə. Azad ikən keçirtdiyim zamanı yenidən düşündükdə bu tipli fikirlərim daha möhkəmlənib inandırmağa və əmin etməyə çalışır məni... Düşüncələrim hər zamankından daha qarışıq və anlaşılmaz şəkil alır günbəgün və mən bütün hisslərimin yavaş-yavaş məni tərk etdiyini düşünürəm, hiss edirəm hissizləşdiyimi... Bura gəldiyim ilk günlə indiki mən arasında yerlə göy arası qədər fərqlər var, yox mən bunu xarici görkəmə aid etmirəm. Çünki xarici görkəmimi tamamilə unutmuşam, hər dəfə sorğu otağında üzümə baxıb qəbul edirəm görünüşümü və keçmişdəki xarici varlığımdan zərrə qədər belə təsəvvürüm qalmayıb, indiki durumumla tamam razıyam...

Bəzən nə qədər qəribə səslənsə belə burada olduğum durumdan razılıq əlamətləri də yaranır özlüyümdə... Çöldəki həyatımda çox arzulayıb da yetə bilmədiklərim bəzi istəklərimə bu imkansız və

məhdud yerdə nail ola bilirəm. Əslində çöldə yaşadığım həyatda demək olar ki, adi bir insan üçün lazım olan bütün imkanlara sahib idim, lakin daim bir əskiklik, daim içimdə bir aclıq və natamamlıq hiss edirdim, bu hiss heç vaxt tərk etmirdi məni. Həmişə tənhalığa və düşüncələrimlə baş-başa qalacağım bir şəraitə ehtiyac duyurdum, özümlə yalnız qalmaq və keçən illər ərzində özümdə baş vermiş dəyişiklikləri dərk etmək istəyirdim. Fəqət heç cür alınmırdı, vəziyyət, məkan və zaman fərqlilikləri eyni bir nöqtədə kəsişmirdi... Həmişə arzulayırdım ki, uzaq bir dağ kəndinə gedib qısa da olsa bir müddət orada vaxt keçirə bilim, şəhərdə nə işdə, nə də ki evdə istədiyim şəraiti tapa bilmirdim özüm üçün. Balaca kabinetimdə ya aramsız telefon zəngləri mane olurdu mənə, ya da ki, dalbadal girib-çıxan və saysız-hesabsız mənasız suallar verənlər... Gözdən uzaq bir guşədə taxta və balaca bir kənd evi, yalnız mən və fikirlərim, bəlkə onda həqiqətən nə istədiyimi və əsas tələbatımın nə olduğunu anlaya bilərdim. Axı bütün bu qəribəliklərin səbəbi nədir? Niyə mən də sıradan olanlar kimi yaşaya bilmirəm, düşünmürəm? Yoxsa hamı mənim kimi düşünür, ancaq bunu bəlli etmir, sadəcə mən bunu böyük bir zad kimi şişirdib dağ

boyda etmişəm və bu problemlər günbəgün bitirib yoxa çıxarır məni. Heç kimə yox, məhz özümə ehtiyacım var, necə ki, bütün bu qəribəlikləri özüm yaratmışam, eləcə də son qoyub hər şeyi qaydasına salmalıyam. Heyf ki, belə bir fürsəti çox axtarsam da heç vaxt əldə edə bilməmişdim...

Qaranlıq kamerada bəzən gözlərimi yumurdum, bəzən isə otağın qaranlığından heç buna ehtiyac qalmırdı, onsuz da hər tərəf eyni bir rəngdə idi, heç nəyi bir-birindən ayırd etmək mümkün deyildi. Qaranlıq, zülmət rəngi hər şeyi eyni bir səviyyəyə gətirib bərabər şəkildə düzmüşdü və mən zülmətdən başqa onların heç birini görə bilmirdim. Beləcə oturub saatlarla, bilmirəm bəlkə də günlərlə düşünürdüm, axı burada vaxt anlayışı yox idi və yaxud da sadəcə mənim üçün zaman deyiləcək bir məfhum mövcud deyildi. Yalnız özümdən ibarət idim indi, hətta kameranın əşyasız olması da bir anlamda mənim üçün əlverişli idi. Buradakılar da "sağ olsunlar", heç vaxt məni narahat etmirdilər, hətta gündəlik yemək payımı gətirərkən belə bu işi usta bir səssizliklər edib cıqqır belə çıxartmırdılar. Məni həyatın bütün səslərindən məhrum edib uzaqlaşdırmağa, dəli

etməyə çalışırdılar, boş bir kamera, əngin bir qaranlıq və ölüm sükutu, günlərlə, həftələrlə davam edən eyniliklər, ən kiçik hərəkətə belə möhtac olan yorğun saatlar. Mənim dəli olacağımı düşünürdülər, amma yanılırdılar, çünki mənə oynadıqları bütün bu oyunlar əslində mənim üçün problem yox, məhz istədiyim şəraitin özündən başqa bir şey deyildi. Bu günlərin mənim üçün bəlkə də bir çıxış yolu olduğunu düşünürdüm arabir və yaradılan şərait, hə, niyə də olmasın, axı bu, yəni ki, özümlə təkbaşına qalıb düşüncələrimi ayırd edə bilmək mənim tək istəyim və xəstəliyimdən yeganə çıxış yolum idi. Çöldəki həyatımda bunu bacarmaq üçün münasib zaman və məkan ortamının olmaması indi problem olaraq dayanmırdı qarşımda və mən istəyimə çatırdım, anlamağa başlamışdım özümü, fikirlərimdən günbəgün agah olurdum və getdikcə anlayırdım ki, sən demə, elə əsl toxsuzluğum bu imiş – düşüncə boşluqları... İndi hər şey getdikcə yaxşıya doğru yaxınlaşır, lakin bu sadəcə kiçik bir başlanğıcdır...